# Azərbaycanın böyük zəfəri yaxındadır!

*Hörmətli oxucu, Qarabağda baş verən olaylarla bağlı Türkiyənin tanınmış siyasətçiləri ilə söhbətlərimizi davam etdiririk. Budəfəki müsahibimiz hakim Ədalət və İnkişaf Partiyasının (AKP) ünlü isimlərindən biri Soner Aksoydur.*

*O, ixtisasca mühəndisdir, İstanbul Texniki Universitetinin mexanika fakültəsini bitirib. Uzun illər ölkə sənayesinin idarəetmə strukturlarında yüksək vəzifələrdə çalışıb. Sonra həyatını siyasətə həsr etmişdir. Türkiyə Böyük Millət Məclisinin (TBMM) AKP-dən iki çağırış deputatı olub. Parlamentdə ayrı-ayrı dönəmlərdə Ticarət, enerji və təbii ehtiyatlar, eləcə də Elm və innovasiyalar komitələrinə başçılıq edib.*

*S.Aksoy Türkiyə Prezidenti R.T.Ərdoğanın daxili və xarici siyasətinin qızğın tərəfdarlarındandır. Soner bəy son illər Türkiyənin çap mətbuatında aktual ictimai-siyasi mövzularda tez-tez maraqlı köşə yazıları ilə çıxış edir. Azərbaycanın yaxın dostu kimi tanınır. Onunla söhbətimizin oxucularda maraq doğuracağını ümid edirik.*

**– Salam, xocam, necəsiniz? Sizi Bakıdan salamlayırıq...**

– Çox yaxşı. Gözəl Bakı, can Azərbaycan hər an qəlbimdədir. Mən də sizi, bütün Azərbaycan xalqını hərarətlə salamlayıram. Allahdan qardaşlarıma ən xoş dualarımı diləyirəm.

**– Hörmətli, Soner bəy, Dağlıq Qarabağda baş verənlərlə bağlı fikrinizi bilmək istəyirik...**

– Mən hesab edirəm ki, dost Azərbaycan dövləti və mərd xalqınız Dağlıq Qarabağın işğalı ilə heç cür barışa bilməzdi. Xain düşmən illər öncəsi öz havadarlarının köməyi ilə Qarabağda məmləkətinizin kürəyinə xəncər batırmışdı. Bu gün Azərbaycan əsgəri cəbhədə irəli yürüyür və inşallah, o xəncəri çıxarıb atacaq. Xəncər bu dəfə yağı düşmənlərin sinəsinə saplanacaq.

Mən bu ilin 27 sentyabrında Ermənistanın hərbi təcavüzü ilə bağlı öncə narahatlıq keçirdim. Sonra Azərbaycan Ordusunun düşmənə layiqli cavab verdiyini eşitdim və bunu müşahidə etdikcə, qəlbim sonsuz qürur hissləri ilə aşıb-daşdı.




*Bu, bir az cəsarət tələb edən məsələ idi. Xoşbəxtlikdən, bu gün Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev böyük qətiyyət və cəsarət nümayiş etdirir. Halal olsun, deyirəm. Xalqın əsl lideri məhz belə olmalıdır!*

**– Azərbaycan dövləti Qarabağda ədalətli mücadilə aparır, deyilmi?**

– Əlbəttə! Mən hesab edirəm ki, Qarabağın Ermənistan tərəfindən işğalı bütün türk dünyası üçün bir qara yara idi. Bu, 30 ildən çox çözülməyən bir məsələ idi. Bunun ədalətli həlli çox vacibdir.

Zərrə qədər şübhə etmirəm ki, Azərbaycan xalqı öz əzəli, tarixi torpaqlarını geri alacaq. Biz Türkiyə olaraq, sizə hər cür yardım etməyə hazırıq.

**– Dünya çapında bir çox güclər işğalçı Ermənistanı nəinki tənbeh etmir, əksinə ona havadarlıq edir. Nədən belədir?**

– Səbəbi bəllidir. Dünya ədalət üzərində qurulmamışdır. Dünyada ədalət Osmanlı Türkiyəsi ilə bitdi. Sonra zalım ölkələr bir araya gəlib müxtəlif beynəlxalq qurumlar yaratdılar. Həmin qurumlar dünyanın məzlum xalqlarının deyil, onların öz maraqlarına xidmət edir.

Azərbaycanın Qarabağ torpaqlarının işğalı onları narahat etmir. Biz özümüz Qarabağda ədaləti bərpa etməliyik. Bir qədər əvvəl qeyd etdiyim kimi, son 30 ildə bu problem çözülməyib. Nə qədər gözləmək olar? BMT, Avropa İttifaqı, ATƏT dildə Ermənistanın Azərbaycan torpaqlarının zəbt etməsinin haqqı olmadığını ifadə edirlər. Ancaq təcavüzkara "Dur, sən təcavüzkarsan!" deyən yox idi.

Bu, bir az cəsarət tələb edən məsələ idi. Xoşbəxtlikdən, bu gün Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev böyük qətiyyət və cəsarət nümayiş etdirir. Halal olsun, deyirəm. Xalqın əsl lideri məhz belə olmalıdır!

Biz qardaşlarıq, dövlətlərimiz ayrı olsalar da, eyni millətik. Bizim İranda, Orta Asiyada da qardaşlarımız var. Mən buradan Orta Asiyanın türk dövlətlərinə də səslənir, onları Azərbaycanın haqq işini dəstəkləməyə çağırıram.

Biz savaş istəmirik. Amma, savaşa hazır durmaq zorundayıq. Bütün məsələ budur.

Türkiyə cəsur mehmetciyi, tərəqqi edən iqtisadiyyatı, vətəndaşının uca Allaha inancı və inamı ilə güclüdür. Azərbaycan da eyni duruma gəlir. Dualarımız sizinlədir.

**– Son günlər Ermənistan ordusu Azərbaycanın şəhər və kəndlərinin dinc əhalisini, uşaq və qadınları hədəfə alır...**

– Ermənistan zalımdır, canidir, bəlaləri tökdüyü qanda boğulmalıdır. Cənubi Qafqazda sülh və sabitliyə qarşı çıxan yeganə ölkə Ermənistandır. Beynəlxalq ictimaiyyət dinc əhaliyə qarşı yönəlmiş qanlı və xain hücumlara biganə qalmamalıdır. Bu vəsilə ilə şəhid olan soydaşlarımıza Allahdan rəhmət, yaralı soydaşlarımıza isə şəfa diləyirəm.

**– Xocam, Qərbin, xüsusilə Fransa dövlətinin erməni sevgisi nədən qaynaqlanır?**

– Ermənistan dövlət deyil, dövlətcikdir. Ondan lazım olanda istifadə edirlər. Fransa dövləti, onun başçısı Makron Ermənistanı türk dünyasına, türk və müsəlman birliyinə qarşı bir alət kimi görür. Ermənilər bunu başa düşmürlər. Ermənistanın baş naziri Nikol Paşinyan isə avanturistin biridir. Onun hərəkətləri və gülünc bəyanatları ikrah doğurur.

Diqqətlə tarixə nəzər yetirsəniz, görərsiniz ki, Fransa, digər "sömürücü" (istismarçı) dövlətlər ki, dünyanın hər yerində bir "çıban başı" buraxıblar. Somalini, Suriyanı qarışdıran kimi, indi də Qafqazı qarışdırmaq niyyətinə düşüblər. İstəyirlər ki, kiçik dövlətlər bir-birləri ilə vuruşub, gücdən, taqətdən düşsünlər və hüquqlarını tələb edə bilməsinlər.

Ermənistan təkcə Azərbaycandakı türk qardaşlarımızı deyil, bizləri də rahatsız edir. Ermənistanın PKK və başqa terrorçu qurumlarla sıx əlaqələri var.

**--Cənab Ərdoğan dəfələrlə bəyan edib ki, Türkiyə sona qədər öz qardaşlıq borcunu yerinə yetirəcək...**

--Siz mənə deyin, "Dünya 5-dən böyükdür!" deyən başqa bir lider varmı? Bəli, yoxdur. Fələstinlilərin hüquqlarını belə qətiyyətlə müdafiə edən digər dövlət başçısı varmı? Yenə də "yox" deyəcəksiniz!

Türkiyə bu gün zalımların deyil, haqqı əlindən alınanların, məzlumların yanındadır. Bizim bir yerdə olmağımız gərəkdir. Biz millət olaraq sizinlə bir yerdəyik. Niyə? Çünki ortada bir haqsızlıq var.

**–Soner bəy, sonda ənənəvi sualımız var. Azərbaycan xalqına, əsgərlərimizə arzunuz nədir?**

–Qardaşım, Allaha güvənin, irəli gedin. Necə ki, haqq yolu ilə gedirsiniz. Cəbrayıl şəhərinin və rayonun köylərinin düşməndən azad edilməsi xəbərini eşidib dünyalar qədər sevindim.

Bir daha deyirəm: Qarabağın işğalı Azərbaycanın kürəyinə saplanan bir xəncər idi. Bu xəncər nə qədər orada qalacaq? Bismillah, irəli yürüyün və çıxarın o xəncəri. İnşallah, Azərbaycanın böyük zəfəri lap yaxındadır!

İnsanı əcəl qovur, deyilmi? Haqq yolunda yürümək gərəkdir! Vətən yolunda vuruşmaq böyük şərəfdir. Bu, qeyrət, namus, və milli şərəf məsələsidir!

Azərbaycan xalqına, bütün əsgər və zabitlərinizə uğurlar diləyirəm. Allah onların hər birini salamat eləsin. Qələbəniz möhtəşəm, itkiləriniz az olsun! Amin!

**Söhbəti qələmə aldılar:**

*İlqar RÜSTƏMOV,*
*Məsaim ABDULLAYEV,*
*"Xalq qəzeti"*